

**MİRKAZIM KAZIMOV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL DÖVLƏT QURUCULUĞU SİYASƏTİ

İyirminci əsr Azərbaycan tarixi bir çox mühüm hadisələrlə zəngin olmuşdur. Bu hadisələrdən ikisi daha önəmlidir. Birincisi-Azərbaycan xalqının bütün Şərqdə, müsəlman aləmində ilk demokratik respublika qurması və əsrin sonunda dövlətçiliyini bərpa etməsi, ikincisi - Azərbaycan tarixinə, bütün türk dünyasına Heydər Əliyev kimi fenomen bir tarixi şəxsiyyət, əvəzolunmaz lider ərməğan etməsidir.

On dörd ilə yaxın Azərbaycana rəhbərlik etmiş, beş il Sovetlər İttifaqı kimi möhtəşəm bir ölkənin liderlərindən biri olmuş Heydər Əliyev cənabları 1987-ci ilin sonunda böyük bir dövlətin rəhbərliyindən istefaya getdikdən sonrakı 1988-1993-cü illərdə misli-bərabəri olmayan siyasi davamlılıq nümayiş etdirmiş, bu beş il ərzində bir neçə onilliklər çəkisinə bərabər siyasi yol qət etmiş, yenidən ölkənin siyasi hakimiyyətinə qayıtmışdır.

Bu qayıdış tarixi zərurət idi. Bu tarix, zərurətin təntənəsi idi.

Nə verdi bu qayıdış xalqımıza, Azərbaycanımıza, müstəqil dövlətimizə? Hər şeydən əvvəl, 70 ildən sonra öz müstəqilliyini bərpa etmiş bir ölkəni vətəndaş müharibəsi təhlükəsindən xilas etdi. Ölkə ərazisinin növbəti işğallarının qarşısını aldı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə dönməz xarakter verdi. Azərbaycan dövlətinin uzaqgörən xarici siyasi kursunu müəyyənləşdirdi. Dünyada təşəkkül tapmış bazar iqtisadiyyatı yolunu seçərək milli iqtisadiyyatın əsas istiqamətlərini, ilk növbədə onun neft strategiyasını işləyib hazırladı.

Bu yaxınlarda böyük fəxrlə 10 illiyini qeyd etdiyimiz, təməli dahi siyasətçi möhtərəm Heydər Əliyev cənabları tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası yaradıldı. İndi onun sıralarında 300 minə yaxın xalqını, Vətənini sevən, onun xidmətində əzmlə duran insanlar vardır.

Bütün bunlar dahi şəxsiyyət, böyük dövlətçilik təcrübəsinə malik Heydər Əliyev cənablarının qətiyyəti və bir-birinin ardınca atdığı uğurlu addımlar sayəsində mümkün oldu.

Müstəqilliyimizin bərpası illəri çox mürəkkəb, gərgin ictimai-siyasi dövrlə müşayiət olundu. Keçmiş Sovetlər İttifaqı məkanının müstəqillik əldə etmiş digər respublikalarından fərqli olaraq, Azərbaycan çox böyük çətinliklərlə üzləşdi.

Keçmiş mərkəz tərəfindən yaradılan və dövlət müstəqilliyimizin qarşısını almaq məqsədi güdən Dağlıq Qarabağ problemi Azərbaycanı ağır vəziyyətə salmaqla onu həlli çox illər çəkəcək fəlakətə sürüklədi.

Bu dövrdə xalqın azadlıq arzusundan və müstəqilliyə inamından öz məqsədləri üçün istifadə edən, parlament çevrilişi yolu ilə zor gücünə hakimiyyəti ələ alan Xalq Cəbhəsi-Müsavat cütlüyü ölkə üçün çox çətin olan bir dövrdə ölkəyə rəhbərliyi bacarmadı, dövlət və idarəçilik işlərində özlərinin səriştəsizliklərini və yarıtmazlıqlarını büruzə verdilər. Bunun nəticəsi olaraq ölkənin daxili və xarici siyasəti dözülməz vəziyyətə düşdü.

1993-cü ilin yazında Azərbaycan dövləti öz müstəqilliyini itirmək, əyalətlərə, regionlara bölünmək, bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı.

Müdrik xalqımız və onun qabaqcıl ziyalıları, hətta hakimiyyətdə təmsil olunan fərsiz iqtidar rəhbərlərinin özləri də belə bir tarixi çətin anda keçmiş Sovetlər İttifaqı məkanının, müasir türk dünyasının dahi şəxsiyyəti, böyük dövlətçilik təcrübəsinə malik siyasi xadim, xalqın əvəzolunmaz lideri Heydər Əliyev cənablarını ölkə rəhbərliyinə dəvət etdilər.

Möhtərəm Prezidentimiz səbrlə, dözümlə və bununla yanaşı qətiyyət və uzaqgörənliklə ölkədə başlanmış vətəndaş qırğınının, Azərbaycanın parçalanmasının qarşısını aldı. Qanunsuz silahlı birləşmələr zərərsizləşdirildi. Milli dövlətçiliyə zərbə vuran siyasi qruplaşmaların ölkənin dövlət mənafeyinə zidd hərəkətlərinə son qoyuldu.

1993-cü ilin payızında Prezidentimiz böyük uzaqgörənliklə milli ordu quruculuğuna başladı. Müharibədə uzunmüddətli atəşkəs əldə olundu. Bir-birinin ardınca baş verən dövlət çevrilişlərinin və terror aktlarının qarşısı qətiyyətlə alındı. Ölkənin bütün ərazisində ictimai-siyasi sabitlik yaradıldı.

1992-1993-cü illərdə xarici siyasət sahəsində, xüsusilə qonşu ölkələr - Rusiya Federasiyası və İran İslam Respublikası ilə münasibətlərdə buraxılan kobud səhvlər qısa bir zaman kəsiyində möhtərəm Prezidentimizin diplomatiyası sayəsində aradan qaldırıldı.

Azərbaycan regionda öz xüsusi nüfuzu olan bu iki dövlətlə qarşılıqlı faydaya və tarazlaşdırılmış əməkdaşlığa əsaslanan əlaqələri bərpa etdi.

Möhtərəm Prezidentimiz bütün bunlarla yanaşı 70-80-ci illərdə başladığı və həmin dövrdə böyük vüsət alan iqtisadi və sosial quruculuq işlərinin bərpası və sürətləndirilməsi istiqamətində mühüm tədbirlər müəyyənləşdirib həyata keçirdi.

Dünyanın mühüm əhəmiyyətli neft məmləkəti olan ölkəmiz üçün neft sənayesinin inkişafının nə qədər vacib olduğunu böyük uzaqgörənliklə duyan, onun qlobal və regional siyasi və iqtisadi baxımdan Azərbaycanın gələcəyi üçün mühüm strateji əhəmiyyət kəsb etdiyini qiymətləndirən Böyük Heydər Əliyev dünyanın inkişaf etmiş dövlətlərinin iri neft şirkətləri ilə karbohidrogen ehtiyatlarının istismarına dair beynəlxalq müqavilələr imzaladı. Bu gün bu sazişlərin sayı 21-ə çatır. Onlar 15 dövləti təmsil edən 30-dan çox şirkət tərəfindən bağlanıb.



Azərbaycanın son dövrdə bu sahədə əldə etdiyi uğurlar möhtərəm Heydər Əliyev cənablarının həyata keçirdiyi böyük neft strategiyasının bir daha düzgünlüyünü, məqsədyönlülüyünü və möhtəşəmliyini göstərir.

Xarici neft şirkətləri bu günə kimi Azərbaycanın neft-qaz sənayesinə 6 milyard ABŞ dolları həcmində investisiya qoymuşlar. Neftimiz 2 boru kəməri vasitəsilə Qara dəniz sahilinə, oradan dünya bazarına çıxarılır. İndi Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri üzərində ciddi iş aparılır. Bu xətt Azərbaycanın və gələcəkdə digər Xəzəryanı ölkələrin neftini Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çıxaracaqdır.

2005-ci ildə Şahdəniz yatağından hasil ediləcək Azərbaycan qazını da Türkiyə və Avropa bazarına çıxarmaq nəzərdə tutulur. Bu, Bakı-Tbilisi-Ərzurum kəməri ilə həyata keçiriləcəkdir. Bu layihələr üzərində Azərbaycan Prezidenti, Heydər Əliyev, Neft Şirkəti, Şirkətin birinci vitse-prezidenti İlham Əliyev cənabları çox ciddi və çətin iş apardılar və bu işi indi də davam etdirirlər.

Yaxın gələcəkdə bütün kontraktlar üzrə Azərbaycanın neft-qaz sənayesinə yönəldiləcək xarici sərmayələrin həcmi 60 milyard ABŞ dolları təşkil edəcəkdir.

Mütəxəssislərimizin hesablamalarına görə, 2020-ci ildə ölkəmiz 50 milyon tondan artıq neft, 50 milyard kubmetr qaz hasil edəcəkdir.

Neft strategiyası sahəsində aparılan digər mühüm tədbir möhtərəm Prezidentimiz tərəfindən yaradılan Dövlət Neft Fondudur. Burada əsas məqsəd neftdən gələn gəlirlərin bir hesabda toplanmasıdır. Bu fond iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına imkan verəcək, əhalinin rifah halının yaxşılaşdırılmasına xidmət edəcəkdir.

Eyni zamanda fondun vəsaiti gələcək nəsillərimizə də xidmət etməyi nəzərdə tutur. Bu fond imkan verəcəkdir ki, biz gələcəkdə neftdən asılı olmayan iqtisadiyyat yarada bilək.

Hazırda neft fonduna 700 milyon dollara yaxın vəsait toplanmışdır. Ölkənin valyuta ehtiyatı 1 milyard 200 milyon dollara çatmışdır. Müqayisə üçün qeyd edilməlidir ki, 1993-cü ildə valyuta ehtiyatında heç 10 min dollar da yox idi.

Yürüdülən məqsədli investisiya və kredit siyasəti nəticəsində ölkənin elektroenergetika sənayesi inkişaf edir, yeni-yeni obyektlər salınır, fiziki cəhətdən köhnəlmişlər yenidən qurulur. Bunlara misal kimi Yenikənd Su Elektrik Stansiyasının, Bakı İstilik-elektrik mərkəzinin, Abşeronda Şimal Elektrik stansiyasının tikilib istifadəyə verilməsini göstərmək olar.

Heydər Əliyev cənablarının hakimiyyətə qayıdışının 10 illiyi ərəfəsində fəxrlə deyə bilərik ki, ölkə iqtisadiyyatının dünyada qəbul olunmuş bazar prinsiplərinə keçidi prosesi sürətlə aparılır. Torpaq islahatı, kiçik və orta müəssisələrin özəlləşdirilməsi başa çatdırılmış, milli sahibkarlıq durmadan inkişaf edir.

Bu gün ölkə miqyasında istehsal olunan ümumi daxili məhsulun və iqtisadiyyatın müxtəlif sahələrində çalışan işçi qüvvəsinin 70 faizindən çoxunun özəl sektorun payına düşməsi buna əyani sübutdur.

MDB məkanında ölkəmiz ilk dəfə olaraq kənd təsərrüfatı sahəsində özəlləşdirməni artıq bir neçə il bundan əvvəl başa çatdırmış, istehsal dövriyyəsində olan torpaq tamamilə kəndlilərin mülkiyyətinə verilmişdir. Son dövrlər aqrar sahədə əldə olunan iqtisadi nəticələr dövlət başçımızın kəndlə bağlı apardığı siyasətin nə qədər düzgün olduğunu bir daha sübut edir.

Prezidentimizin apardığı siyasət nəticəsində ölkəmiz bir çox iqtisadi regional layihələrdə, o cümlədən Avropa Birliyi tərəfindən irəli sürülmüş Avropa və Asiya ölkələri üçün mühüm iqtisadi və strateji əhəmiyyət kəsb edən TRASEKA adlanan qədim İpək yolu nəqliyyat dəhlizi layihəsində, İNOGEYT karbohidrogen daşıyıcılarının nəqlinə dair beynəlxalq dövlətlərarası proqramda və digər bu kimi iqtisadi və kommunikasiya layihələrində aktiv iştirak edir, bir çox hallarda onların birbaşa təşkilatçısıdır. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin vacibliyi və burada Azərbaycanın fəal iştirak etməsi önə çəkilir. Artıq bu sahədə ölkəmiz praktiki addımlar atmağa başlamışdır.

Dövlət başçısı tərəfindən aparılan məqsədyönlü xarici siyasət ölkəmizin dünyanın aparıcı dövlətləri tərəfindən sayılıb seçilməsinə, onun fikirlərinin qəbul edilməsinə imkan yaradır. Bunlar xalqımız üçün ən ağrılı məsələ olan Dağlıq Qarabağ probleminin həllində irəliləyişin əldə olunmasına təkan verir.

Bu gün xalqımız əmindir ki, möhtərəm Prezidentimizin Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində apardığı ardıcıl, məqsədyönlü və prinsipial fəaliyyət müsbət nəticələrini verəcək, işğal olunmuş ərazilərimiz azad ediləcək, ölkənin ərazi bütövlüyü bərpa olunacaqdır.

Böyük qürur hissi ilə qeyd etməliyik ki, möhtərəm Prezidentimizin ikinci dəfə hakimiyyətdə olduğu bu illər ərzində ona kömək edən, daim yardımçı olan siyasətçilərdən, dövlət adamlarından biri, mən deyərdim, birincisi Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, millət vəkili İlham Əliyevdir.

Bunu onun Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı kimi apardığı ardıcıl iş, öz xalqının, dövlətinin mənafeyini ləyaqətlə qoruması, əsas problemimiz olan Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində həyata keçirdiyi tədbirlər bir daha sübut edir.

Biz bu gün fəxrlə deyə bilərik ki, müasir Azərbaycan dövlətinin möhkəmləndirilməsinin, onun dünyəvi dövlət kimi təşəkkül tapmasının banisi möhtərəm Heydər Əliyev cənablarıdırsa, bu dahi qurucunun ardıcıl davamçısı hörmətli İlham Əliyevdir. O, ölkənin siyasi rəhbərliyində layiqli, çoxsahəli fəaliyyət göstərir, xüsusilə möhtərəm Prezidentimiz tərəfindən yaradılmış siyasi sabitliyin daha da möhkəmləndirilməsi, dövlətimizin, millətimizin dünyada tanınması üçün məqsədyönlü, ardıcıl siyasət aparır, Azərbaycan dövlətinin nüfuzunun artmasına böyük xidmət edir.

Dünyanın siyasi korifeylərindən biri olan görkəmli dövlət xadimi Heydər Əliyev cənabları tərəfindən yaradılan Yeni Azərbaycan Partiyası və onun çoxminli



üzvləri Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində, çoxsahəli iqtisadiyyatının inkişafında və xalqımızın rifah halının yaxşılaşdırılmasında öz qüvvə və bacarıqlarını əsirgəmirlər, siyasi və sosial həyatın bütün sahələrində fəallıq göstərirlər.

Ölkənin əldə etdiyi nailiyyətlərdə danılmaz zəhməti olan Yeni Azərbaycan Partiyası gələcəkdə də möhtərəm Heydər Əliyev cənablarının rəhbərliyi altında iqtidarda olacaq, dövlətçiliyimizin möhkəmləndirilməsində, ölkənin iqtisadi tərəqqisində, sosial sahənin inkişafında əlindən gələni edəcəkdir.

Zəmanəmizin müqayisəolunmaz siyasi və dövlət xadimi, Türk dünyasının lideri zirvəsinə yüksəlmiş çox hörmətli möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının şanlı 80 illik yubileyi ərəfəsində qələmə aldığım bu çox məsuliyyətli qeydlərimi onun 1993-cü ilin 15 iyununda parlamentin sessiyasında böyük uzaqgörənliklə söylədiyi tarixi, bugünkü və gələcək nəsillər üçün dövlətçilik nizamı olan sözləri ilə tamamlayıram:

**"Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".**

Qoy bu dahiyanə fikirlərin müəllifi daim var olsun, yüz yaşasın, memarı, qurucusu olduğu müasir Azərbaycanı daha yüksək tərəqqiyə aparsın.